Milli mətbuatımız -150 il

# Zülmətə yaşıl işıq

Maarifçilik məsləki, mübarizə əzmi xalqa məhəbbət, millətə doğru yolu göstərmək, doğru sözü söyləmək Həsən bəy Zərdabi mübarizəsinin əsası idi. O, bu əməlləri ilə düşmənin düşmənliyini, dostun doğruluğunu, doğru yolun əbədiyyən olmasını sübuta yetirmək istədi və bunu bacardı da. O, əməkçi xalqa, onun tarixinə, mənafeyinə, tərəqqisinə, azadlıq mübarizəsinə xidmətin tərəfdarı idi. Xalqı zülmətdən işığa çıxaran, milli oyanışa təkan verən, "ideyaları öldürmək olmaz" şüarları ilə səsi yüksəklərə ucalan Həsən bəy Zərdabi Azərbaycan Milli mətbuatının əsasını qoydu. Azərbaycan milli mətbuatı hər zaman xalqımızın maariflənməsində, irəliyə doğru can atmasında, uşaqları təhsilə cəlb etməsində mühüm rol oynadı. Cəmi 56 nömrəsi işıq üzü görən "Əkinçi" qəzeti Azərbaycan milli dirçəliş tarixində özünəməxsus yer tutdu. Həsən bəy Zərdabi xalqımıza təmənnasız xidmət edərək xalqı qəflətdən oyatdı, inkişaf yoluna çıxarmaq üçün misilsiz xidmətlər göstərdi. İlk xeyriyyə cəmiyyətini qurdu. Milli teatr və mətbuatın əsasını qoydu, millətin övladları üçün məktəblər yaratdı, bir sözlə, xalqı işıqlı gələcəyə doğru səslədi. Onun fədakar əməyinin, ağır zəhmətinin dəyərini bilən Əli bəy Hüseynzadə Həsən bəy Zərdabinin ünvanına demişdir: "Aləmi-İslam bir qaranlıq içərisində qaldığı zaman bu adam əlinə məşəl alıb qaranlıqları işıqlandırmağa çalışdı".

Dərin elmi biliyə malik Həsən bəy Zərdabi daim xalq kütlələri içərisində gününü keçirərdi. Xalqın problemləri, qayğıları bir sözlə bütün çətinlikləri Həsən bəy Zərdabini narahat edirdi. Gözəl pedaqoq Azərbaycan dövrü mətbuatının bünövrəsini qoymaqla Azərbaycan xalqının mənəvi mədəniyyətinə töhvələr verdi, 1875-ci il 22 iyul tarixini əbədiləşdirdi. Qızıl hərflərlə mədəni tariximizə həkk olunan bu əlamətdar gün xalqımızın ictimai-siyasi həyatında böyük rol oynadı. XIX əsr Azərbaycan ictimai-siyasi həyatının aynası olan "Əkinçi" xalqın inam, güvənc yeri, bu günümüzün maddi və mənəvi sərvəti oldu. Böyük alim, pedaqoq, jurnalist, ictimai xadim kimi hər zaman xalqın, vətənin mənafeyini müdafiə edərək azadlıq ideyalarını yaymağa, yaşatmağa başladı.

"Əkinçi" qəzeti Tiflisdə çap olunmağa başlamışdır. O dövrdə Azərbaycan (o vaxtki Şimali Azərbaycan) Rusiya imperiyasının tərkibində idi və milli mətbuatın yaranması çox çətin idi. Həsən bəy Zərdabi böyük səylə hökumətdən icazə alaraq qəzeti nəşr etməyə nail olmuşdur.

Qəzetin əsas məqsədi xalq arasında maarifçilik ideyalarını yaymaq, kənd təsərrüfatını inkişaf etdirmək, elm və təhsilin əhəmiyyətini izah etmək idi. Adının "Əkinçi" olması da təsadüfi deyildi - qəzetin əsas oxucuları kəndlilər idi, çünki Zərdabi xalqın əsas hissəsinin kəndlilər olduğunu yaxşı bilirdi.

"Əkinçi" Azərbaycan türkcəsində sadə xalq dilində yazılırdı. Bu, onun ən böyük üstünlüklərindən biri idi. O dövrdə əksər nəşrlər fars və ərəb dillərinin ağır təsiri altında olurdu, ancaq "Əkinçi" xalqın başa düşəcəyi dildə yazılırdı. Bu isə sadə camaatın maariflənməsi işinə böyük töhfə verirdi.



Qəzetdə əsasən bu mövzulara yer verilirdi:

***Maarifləndirici məqalələr,***
***Elm və texnika xəbərləri,***
***Sosial problemlər,***
***Xalqın həyat tərzi və adət-ənənələri***
***İctimai-siyasi məsələlərə toxunan yazılar.***

"Əkinçi" qəzeti çox çətin şəraitdə fəaliyyət göstərirdi. Maddi sıxıntılar, hökumət senzurası və bəzi mühafizəkar dairələrin təzyiqləri səbəbindən qəzetin nəşri uzun sürmədi. Cəmi 56 nömrə çap olundu və 1877-ci ildə bağlandı.

«Əkinçi» maarifçilik hərəkatını gücləndirdi, gələcək jurnalistlərə və ziyalılara yol göstərdi.

Sonralar onun davamçısı olan "Ziya", "Kəşkül", "Şərqi-Rus", "Molla Nəsrəddin" kimi qəzet və jurnallar da "Əkinçi"nin ideyalarını yaşatdı.

"Əkinçi" qəzeti Azərbaycan xalqı üçün bir məktəb oldu, milli şüurun formalaşmasında əvəzsiz rol oynadı. Bu gün də 22 iyul tarixi Azərbaycanda Milli Mətbuat Günü kimi qeyd olunur.

Qeyd edək ki, qəzetin 1-ci nömrəsi (22 iyul 1875) ildə dərc olunmuşdu.

"Bu qəzetin məqsədi odur ki, camaat arasında əkin-biçin işlərini, faydalı xəbərləri, elm və sənət barədə olan məlumatları yaysın."

Bu sitat qəzetin əsas missiyasını göstərir: xalqı maarifləndirmək, kənd təsərrüfatını inkişaf etdirmək. Qəzetin ikinci nömrəsində (1875-ci il avqust) dərc olunan məqalədə deyilir:

"Kəndlilər bilməlidir ki, torpaq onların malıdır, ona qayğı ilə baxmaq, yaxşı toxum əkib yaxşı məhsul almaq gərəkdir."

Burada Zərdabi kənd təsərrüfatına diqqəti cəlb edir.

Üçüncü nömrə əsasən təhsil haqqında idi.

"Əgər bir millət istər ki, əkinbiçini yaxşı olsun, gərək oxusun, öyrənsin, elmə yiyələnsin".

Qəzetin sonrakı dördüncü nömrəsində - xalqın maariflənməsi haqqında yazılmışdı:

"Camaat bilməsə, öyrənməsə, başqalarından geri qalar, bəs nə üçün yaşayar?!" adlı yazılarla H. Zərbabi çamatı maarifləndirməyə çalışmışdır.

Hər bir nömrədə hər bir sitat o dövrün sadə insanına, kəndliyə ünvanlanırdı ki, o, öz işində, həyatında müasir elmi və praktik biliklərdən istifadə etsin.

Mədəniyyətə böyük ehtiram, realist ədəbiyyatın inkişafına, ana dilinin saflığı və zənginləşməsi uğrunda mübarizə "Əkinçi"nin əsas ideyası idi. Ana dilində ilk qəzet olan "Əkinçi" xalqı cəhalətdən, qaranlıqlardan sabaha doğru aparırdı. Həmin dövrdə dünya xəbərlərini xalqa çatdırmaq, milləti informasiyalarla qəflətdən oyatmaq, maarifləndirmək böyük bir hünər tələb edirdi. Çarizmin əsarətində olan Azərbaycan torpağı əzilirdi, istismar edilirdi. Belə gərgin, ağır illərdə xalqı maarifləndirmək, elmləndirmək çətin və şərəfli peşə idi. Bu cür ağır məsuliyyəti öhdəsinə götürən Həsən bəy Zərdabi bütün çətinlikləri gözü qarşısına alaraq Azərbaycan mətbuatı tarixində ilk cığırı açdı. Azərbaycanı mədəni həyatda yeniliklərə aparmaq, xalqın maariflənməsi işini, sosial baxımdan inkişafını surətləndirmək amalı ilə Həsən bəy Zərdabi gərgin fəaliyyətə başladı.

Həsən bəy Zərdabi çox yaxşı bilirdi ki, demokratik mətbuatın Azərbaycanda inkişafı, belə bir mətbuatın səciyyəsi xalqı daim irəliyə aparacaq. Onu da yaxşı bilirdi ki, bu cür mətbuatın varlığı xalqı ağı qaradan, pisi yaxşıdan seçməkdə, xalqı bütün xəbər və hadisələrdən xəbərdar etməkdə böyük bir vasitədir.

"Əkinçi" dünya xəbərləri ilə bərabər bölgə xəbərlərini də işıqlandırırdı. Hətta burada Qəbələnin (Qutqaşın) adı da tarixə qovuşmuşdur. Bölgə xəbərləri içərisində Qəbələdən olan xəbərlər də "Əkinçi" qəzetində dərc olunmuşdur.

"Əkinçi" 1875-ci il 22 iyuldan 1877-ci ilin 29 sentyabrına qədər fəaliyyət göstərsə də xalqı qəflətdən ayıltdı. Deməli, "Əkinçi" iki ildə çox işlər gördü .

Bu gün buna görədir ki, 150 il keçməsinə baxmayaraq, Həsən bəy Zərdabinin xeyirxah əməlləri bu gün tariximizdə iftixarla anılır.

Xalqımızın tarixində özünəməxsus yer tutan, ictimai həyatın aynası olan "Əkinçi" qəzetinin tam mətni 1979-cu ildə Azərbaycan dövlət nəşriyyatında çap olunmuşdur. Bu gün milli mətbuatımızın ilk qaranquşu kimi XIX əsr Azərbaycan ictimai-siyasi həyatında mühüm rol oynayan "Əkinçi" qəzetinin adı tarixə qovuşmuşdur. Həsən bəy Zərdabi isə bu əməli ilə Azərbaycan ədəbi mühitində əbədiyaşarlılıq qazandı, mənəvi, mədəni sərvətlər xəzinəmizə qiymətli töhvə verdi.

Milli mənəvi sərvətlərimizi qoruyan,gələcək nəsillər üçün ərməğan edən Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyi tariximizin hər səhifəsini yaşatmaqla, təbliğ etməklə bərabər onları göz bəbəyi tək qoruyur, sabahımız üçün xəzinə kimi saxlayır. Zəngin eksponatlara malik muzeyimizin daimi sərgisində Həsən bəy Zərdabinin 1875-ci il 27 mart tarixində "Əkinçi" qəzetinə abunə olmaq istəyənlər üçün "Elannamə"si qorunub saxlanılır. Muzeydə qonaq olan şəxslər 1875-ci ilin orjinal nümunəsi olan bu tarixi sənədi ilk dəfə Qəbələ muzeyində gördüklərini qeyd edirlər. Həmin dövrün canlı şahidi, milli-mənəvi sərvətimiz olan bu sənədin indi çox böyük dəyəri vardır.

Bu günkü jurnalistika ilə əvvəlki dövrü müqayisə etsək görərik ki, elə gəlir ən çətin dövrlərdə fəaliyyət göstərən jurnalistlərin əməyi çox ağır və məsuliyyətli olmuşdur. Bunu müqayisə etsək onda senzuralar, məhdudiyyətlər vardısa indi söz azadlığı, sözü açıq deməyin fərqi böyükdür.

Bu peşəkar işlərində keçdiyi çətin yolda öz səyini əsirgəməyən Vətəninə dövlətinə, dövlətçiliyinə xidmət göstərən əli qələm tutan jurnalistlərin peşə bayramını səmimi qəlbdən təbrik edirik.- Qələminiz iti, sözünüz kəsərli, yolunuz parlaq olsun, Azərbaycan jurnalistləri!

**İlhamə SEYİDOVA,**
**Şəhla XƏLİLQIZI,**
**"Qəbələ"nin ştatdankənar müxbirləri.**

# "Əkinçi"dən bu günə



22 iyul 2025-ci il tarixdə Qəbələ rayon Mədəniyyət Mərkəzində Azərbaycan Milli Mətbuatının 150 illik yubileyi münasibətilə "Əkinçi»dən bu günə: Milli Mətbuatın 150 ili" adlı tədbir keçirilib. Tədbirdə öncə öz peşəsini yerinə yetirərkən şəhid olmuş jurnalistlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Mədəniyyət Mərkəzinin əməkdaşlarının, mətbuat işçilərinin və Qəbələ yazarlarının iştirak etdiyi tədbirdə çıxış edənlər yarandığı gündən Azərbaycan mətbuatının keçdiyi keçməkeşli yollardan, bugünkü inkişaf mərhələsindən söz açaraq, bu gün Azərbaycanda mətbuata, xüsusilə jurnalistlərə ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən göstərilən yüksək qayğıdan danışmış və bu diqqətə görə ölkə rəhbərliyinə öz minnətdarlığını bildirmişdir. Sonda Milli Mətbuatımızın dünəni və bu günü mövzusunda hazırlanmış videoçarx nümayiş edilib.

# Milli Mətbuat Günü

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzində 22 İyul - Milli Mətbuat Günü münasibətilə Tədbirdə Azərbaycan milli mətbuatının yaranma tarixinə, keçdiyi çətin və şərəfli yola nəzər



salınıb, mətbuatın azad düşüncənin və ictimai şüurun formalaşmasında mühüm rol oynadığı qeyd edilib. mətbuat nümayəndələri - Qəbələ TV-nin, "Qəbələ" qəzetinin, "Qəbələ Yazıçılar" Birliyinin nümayəndələrilə görüş keçirilib.